10.61764/lasr.2.2023.26-30

**UOT 316**

**Ülviyyə Mehralıyeva**
*Odlar Yurdu Universiteti, f.f.d., müəllim*
*salimova.ulviyye@mail.ru*

# SÜNİ İNTELLEKTİN YARADILMASININ SOSİAL-FƏLSƏFİ ASPEKTİ

*Hazırkı dövrdə süni intellekt cəmiyyət həyatında mühüm atributa çevrilmişdir. Bu da insanların sosiallaşmasına, həyat tərzinə, mənəvi dəyərlərinə, məqsədlərinə öz təsirini göstərməkdədir. Real vəziyyət onu göstərir ki, artıq süni intellekt nəzəri sahədən sosial həyata daxil olmaqdadır. Buna görə də süni intellektin sosial-fəlsəfi aspektdən araşdırılması aktuallıq kəsb edir. Kompüter texnologiyalarının, nanotexnologiyaların istifadəsi, kibərməkanın qlobal aktivləşməsi təkcə dəyərlərə təsir etmir, həm də insanın ünsiyyət formasına, dünyagörüşünə təsir göstərir.*

***Açar sözlər:*** süni intellekt, insan, sosial fəlsəfə, nanotexnologiya, düşünən maşın, informasiya cəmiyyəti

## Giriş

Hazırda ictimai həyatın bütün sahələrində baş verən əsaslı yeniləşmələr insanın mahiyyətini əhatə edən keyfiyyətlər də mühüm irəliləyişlər yaradır, cəmiyyətin həyat fəaliyyətinin əsas istiqamətlərində insanın rolunu artırır. Digər tərəfdən, cəmiyyətimizin qarşısında duran mürəkkəb və geniş miqyaslı vəzifələrin uğurla həll edilməsi insanın öz mahiyyət potensialını və yaradıcılıq imkanlarını dolğun reallaşdırmağı tələb edir. Bütün bunlar insan mahiyyətinin fəlsəfi mənalandırılmasını davam etdirmək və dərinləşdirmək zərurəti doğurur. Həm də nəzərdə tutulmalıdır ki, müasir elmi-texniki inkişaf, insanla texnika arasında qərarlaşan mürəkkəb və çoxistiqamətli münasibətlərin yeni tərzdə araşdırılması həmişəkindən daha vacibdir.İnsanla təbiət arasındakı qarşılıqlı münasibətlər qanunauyğun surətdə baş verən prosesdir. Bu münasibətlərin mərkəzində biososial mahiyyətə malik insan durur. Sosial varlıq olan insan yaşadığı sosial-iqtisadi mühitin həm obyekti, həm də subyektidir. Təbiətin mövcudluğu, inkişafı, bir haldan başqa hala keçməsi insanın iradəsindən asılı olmayaraq baş verir. İbtidai insanı yalnız qida axtarmaq və düşməndən qorunmaq maraqlandırırdısa, istehsal inkişaf etdikcə insanlar arasında yeni maddi münasibətlər yaranırdı. Bu münasibətlər insanın dünyanı qavramasına və duymasına təsir edir, o, yeni bir dünya qurmağa çalışır. Bəşər tarixinin ilkin dövrlərində həm də güclə ağıl arasında bölgü gedirdi. Əvvəl hamı yalnız qol gücünə iş görürdü, hərə bir işin qulpundan yapışırdı. Elə ki, artıq əlavə məhsul , qida ehtiyatı əmələ gəldi, onu bölmək, saxlamaq, haqq-hesab aparmaq üçün xüsusi adamlar tələb olundu. Ehtiyatın yaranması bəzi adamları istehsal prosesindən azad etməyə, onlara zehni əməklə məşğul olmağı tapşırmağa imkan verdi. Elmi-texniki inqilab, fiziki əməyin geniş miqyasda mexanikləşməsi və kompüterləşməsi zehni əməklə məşğul olanların sayının çoxalmasını tələb edir. Bu isə bəşəriyyətin qarşısında duran vəzifələri yerinə yetirməyə qadir olan yeni mütəxəssislər yetişdirilməsi tələbini irəli sürür. Bu gün isə dünya yeni inkişaf dövrünə qədəm qoyub. Bir elm kimi, təxminən yarım əsrə yaxındır ki mövcud olan süni intellekt kompüterin köməyi ilə insan kimi davranmağı, mühakimə yürütməyi, qeyri-müəyyən və qeyri-dəqiq mühitdə qərar qəbul etməyi bacaran maşının yaradılmasını əsas hesab edir.

## Süni intellektə fərqli yanaşmalar

Süni intellekt informatikanın xüsusi bölməsi olmaqla, psixologiya, fəlsəfə, linqvistika, iqtisadiyyat, məntiq nəzəriyyəsi və bir sıra başqa sahələrə əsaslanan tədqiqat sahəsidir. Süni intellektin məqsədi insan kimi düşünən və insan kimi qərar qəbul edə bilən texniki qurğu yaratmaqdır.Süni intellekt ənənəvi olaraq insanın etməli olduğu, insana xas yaradıcı funksiyanı yerinə yetirə biləcək intellektual sistem, intellektual maşınların, xüsusilə intellektual kompüter

proqramlarının yaradılması elmi və texnologiyasıdır. O, intellektual maşın yaratmağı, xüsusən yalnız insanlara məxsus olduğu düşünülən yaradıcı fəaliyyətlə məşğul ola bilən intellektual proqram yaratmağı özünə məqsəd seçmiş elm və texnologiyadır. Bu elm həm də insan intellektinin araşdırılması kimi də başa düşülür. Müasir dövrdə bu sahədə mütəxəssislərə tələbat zərurəti ortaya çıxıb. Süni intellekt düşüncəsinin əsasını təşkil edən sillogizm - nəticələr nəzəriyyəsinin əsasını Aristotel qoymuşdur. 1275-ci ildə Raymond Liull ”Ars Maqna” adlı məntiq aparatı yaratmışdır. Bu aparat xristianlıq barədə verilən suala insan müdaxiləsi olmadan avtomatik olaraq cavab verə bilirdi. Müasir anlamda, süni intellekt ifadəsi ilk dəfə 1956 - cı ildə Con Makkarti tərəfindən işlədilmiş və süni intellekt ”maşınları intellektual etmək elmi və mühəndisliyi” kimi təyin edilmişdir [2] .Müasir informasiya cəmiyyətinin formalaşmasında, süni intellektlə əlaqədar bir çox problemlərin həllində professor Lütfi Zadənin rolu olduqca böyükdür. Qeyri-səlis məntiq nəzəriyyəsindən əlavə o, beş fundamental elmi nəzəriyyə təklif etmişdir: "təəssüratlar nəzəriyyəsi", "sistemlər nəzəriyyəsi", "optimal süzgəclər nəzəriyyəsi", "soft kompyutinq" və "sözlə işləyən kompüter nəzəriyyəsi". Bu nəzəriyyələr intellektual texnologiyaların inkişafına güclü təsir göstərmiş, müasir informasiya-kommunikasiya sistemlərinin əsaslarının formalaşmasında mühüm rol oynayır. Süni intellektin müxtəlif formalarda yaradılması mövzusu təkcə müasir texnoelm nümayəndələrinin deyil, həm də sosial-humanitar yönümlü mütəxəssislərin marağına səbəb olmuşdur. Fəlsəfə bu problemi sosial-mədəni konteksdə dərk etmək , fərd və cəmiyyət üçün mümkün nəticələrini təqdim etmək üçün kifayət qədər nəzəri və metodoloji potensiala malikdir.Hazırkı dövrdə süni intellekt cəmiyyət həyatında mühüm atributa çevrilmişdir. Bu da insanların sosiallaşmasına, həyat tərzinə, mənəvi dəyərlərinə, məqsədlərinə öz təsirini göstərməkdədir. Real vəziyyət onu göstərir ki, artıq süni intellekt nəzəri sahədən sosial həyata daxil olmaqdadır. Buna görə də süni intellektin sosial-fəlsəfi aspektdən araşdırılması aktuallıq kəsb edir. Süni intellektin yaranmasının fəlsəfi problemlərini, şərti olaraq, iki qrupa ayırmaq olar: süni intellektin yaranmasından əvvəl və sonra . Birinci qrupda aşağıdakı suallara cavab axtarılır: “ süni intellekt nədir, onu yaratmaq mümkündürmü, əgər mümkündürsə, necə yaratmalı?” İkinci qrup isə bu suala cavab axtarır: “ süni intellektin yaradılmasının insan cəmiyyəti, bəşəriyyət üçün nəticələri nə ola bilər?” Fəlsəfi ədəbiyyatda süni intellektin cəmiyyətə təsiri mövzusunda kifayət qədər araşdırmalar mövcuddur. Süni intellektin bəşəriyyətə edə biləcəyi müsbət təsirlərlə yanaşı, yarana bilənəcək risklər, təhlükələr də nəzərə alınmalıdır. Süni intellektin duyan, emosiya yaradan, hiss edən “qəlbi“ olmalıdır. Onun “əfv etmək”, “bağışlamaq“, “sevmək”, “səbr etmək”, “ümumi insani marağı anlamaq”, “mədəniyyəti yaratmaq və qorumaq“ və s. kimi “şəxsi“ keyfiyyətləri olmasa, bəşəriyyətin və insanlığın taleyi baxımından bir sıra bədbin proqnozların reallaşmasına zəmin hazırlana biləcəyini qəbul etmiş olmalıyıq. Süni intellektin bu cür fəlsəfəsi uğursuzdur![ 4 , s. 236 ] . Süni intellektin fəlsəfəsini formalaşdırmaq faktiki olaraq yeni fəlsəfə yaratmaq anlamına gəlir. Süni intellekt texnologiyalarının işləmə parametrləri ilə yanaşı, onun humanist mahiyyəti və ya insanlığa və bütövlükdə cəmiyyətə münasibətdə “dostluğu” nəzərə alınmalıdır. Bu gün süni intellekt sistemlərinin insan həyatında mühüm rola malik olması danılmaz faktdır. Süni intellekt sistemi məntiqi düşünməyi, öz hərəkətlərini idarə etməyi, hiss və emosiyalarını ifadə etməyi, dəyişən ətraf mühit şəraitindən asılı olaraq öz qərarlarını rasionallaşdırıb düzgün qəbul etməyi bacaran insanın fəaliyyətinə alternativ olaraq yaradılmışdır.

Bu sistemlərin imkanları həqiqətən heyrətamizdir. Belə sistemlər, bir sıra sahələrdə - məsələn, hava, quru, su nəqliyyatını idarə edərkən, bəzi tibbi xidmətlər göstərərkən , istehsal prosesində və s. insanı tamamilə əvəz edə bilər. Təbii ki, müasir informasiya texnologiyaları fərdlər, qruplar və bütövlükdə cəmiyyətdə dəyərləri, stereotipləri, davranış formalarını, modellərini müasir şəraitə uyğun olaraq mütəmadi dəyişikliklərə və optimallaşdırmaya məruz qoyur. Kompüter texnologiyalarının, nanotexnologiyaların istifadəsi, kiberməkanın qlobal aktivləşməsi təkcə dəyərlərə təsir etmir, həm də insanın ünsiyyət formasına, dünyagörüşünə təsir göstərir ki, bu da insanın mövcudluğunun mahiyyətini dəyişdirir.

Filosofları narahat edən suallardan biri budur ki, əgər insan öz intellektini aşan intellekt yaradırsa, onda onun rolu nə olacaq və bu, bütövlükdə bəşəriyyətə lazımdırmı? Və nəticədə həm bioloji plan, həm təbii inkişaf edən ağıl, həm də süni xarakter daşıyan intellekt gücləndiriciləri

anlayışı yaranır: texniki qurğular, alətlər, avtomatlar, kompüterlər, robotlar. Onlarsız cəmiyyətin tərəqqisi mümkün deyil.Bir maşın düşünə bilərmi? Düşünə bilən maşınlar insan üçün hansı problemləri yaradacaq? Düşünə bilən maşınlarla insan özündən ağıllı varlıqmı yaradır? və s. Bu cür suallar müxtəlif süni intellekt tədqiqatçılarının, filosofların maraqlarını əks etdirir və buna görə də süni intellekt fəlsəfəsi mövcuddur.Fransız materializmin görkəmli nümayəndəsi Jülyen Lametri " İnsan – maşındır" adlı əsərində insan anlayışına mexaniki materializm mövqelərindən yanaşır, insanı maşın hesab edirdi. Bundan başqa, Lametri ruhu maddi hesab edir, onu canlı orqanizmin "hərəkətverici" qüvvəsi kimi başa düşürdü. O insanla heyvan arasındakı fərqi yalnız kəmiyyət cəhətdən izah etmiş, bu fərqi onların beyinlərinin həcmində və strukturunda görmüşdür. Fransız fəlsəfəsinin digər görkəmli nümayəndəsi, dualist fəlsəfənin banilərindən biri Rene Dekart olmuşdur. Dekart fəlsəfəsinin səciyyəvi xüsusiyyətlərindən biri elmi təfəkkürlə ümumi fəlsəfi prinsiplərin əlaqələndirilməsi idi. Dekart hesab edirdi ki, düzgün fəlsəfi mühakimə yürütmək istəyən hər bir kəs " mən düşünürəm, deməli, mövcudam" prinsipinə əsaslanmalıdır. Dekartın düşünən "mən"inin özündən başqa, mövcudluğu üçün heç bir şeyə ehtiyacı yoxdur. Özünün dediyi kimi düşünən "mən" "heç bir yerdən və heç bir maddi şeydən asılı deyildir". O, gerçəkliyi düşünən "mən"də tapır. Bir çox filosoflar düşünən maşınların insanlığa təhlükə ola biləcəyini iddia edir. Onlar narahatdır ki, robotların insanı əvəz etməsi onun rolunu və dünyada yerini dəyişdirə bilər, əmək bölgüsünü yeni modelə keçirər, insanı müftəxor maşın ağalarına çevirə bilər və s. Lakin digər maşınlar da insanı texnika quldarlarına çevirmədi, sadəcə öz həyatını dəyişməyə imkan verdi. Bu gün süd vəzi xərçəngini müayinə və müalicə edən düşünən maşınlar var. Onlar yalnız fayda verir [1]. Alimlər süni intellektin cəmiyyətə təsirini proqnozlaşdırırlar. Bir qrup hesab edir ki, bu, insanlığın xeyrinə olacaq, digərləri isə müəyyən mərhələdən sonra süni intellektin, xüsusilə robotların insanın özünü nəzarətə almağa çalışacağını deyir. RF-də 2016-cı ildə süni intellektə həsr edilmiş elmi-nəzəri konfransda Rusiya Elmlər Akademiyası İqtisadi Riyaziyyat İnstitutunun direktoru professor L.Makarov "Süni cəmiyyətlər" adlı məruzəsində maraqlı nəzəri faktlar gətirib. O, sosial proseslərin kompyuter modelləşdirilməsini süni cəmiyyətlərin yaradılması statusunda görür. "Süni cəmiyyətlər çoxagentli sistemlərdir. Agentlər mürəkkəb davranışa malikdirlər, onların qarşılıqlı əlaqələri müəyyən dayanıqlı strukturlar formalaşdırır ki, onları süni sosial sistemlər kimi qiymətləndirmək olar" [3].

**Texnologiyaların inkişafı və insan intellekti**

Deməli, süni cəmiyyətlərə sosial-fəlsəfi yanaşmalar lazım gələcəkdir. İnsanabənzər robotları əsl insanlardan ayırmaq üçün ingilis riyaziyyatçısı Alan Türinq tərəfindən test təklif edilmişdir. Bu Turinq testi adlanır. Belə ki, bu testdə insan hakim olur və insan ilə süni intellekti kompüterlə sual-cavab edir. Hakim nə həmin adamı, nə də kompüteri görə bilir. Turinq deyir ki, kompüter o zaman süni intellektə sahib ola bilər ki, o hakimi çaşdırsın və hakim onunla adamın yoxsa kompüterin danışdığını başa düşməsin. 1927-ci ildə Ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş Anri Berqson xəbərdarlıq edirdi: "Əldə olunmuş təcrübə isə əksinə, sübuta yetirirdi ki, texnologiyanın inkişafı cəmiyyətdə yaşayan insanların mənəviyyatının avtomatik yüksəlişi demək deyildir və əgər mənəvi sahədə uyğun nailiyyətlər əldə olunmursa, bəşəriyyətin malik olduğu maddi nemətlər hətta təhlükə təşkil edə bilər. Bizim yaratdığımız maşınlar təbii orqanlarımıza öz funksiyalarını genişləndirməyə imkan verən və beləliklə, insan orqanizminin özünün imkanlarını zənginləşdirən süni orqanlardır. Əgər bədən sağlamdırsa və onun fəaliyyəti nizamlanıbsa, onda ruh da öz növbəsində kamilləşəcək, əks-təqdirdə qarşılıqlı asılılıq ciddi şəkildə pozulacaq və bu, həm sosial, həm də siyasi sferalarda təhlükəli nəticələrə gətirib çıxara bilər".Bu fikirlərdə böyük həqiqətlər var. Berqson bu nitqini söyləyəndə hələ "süni intellekt" anlayışı elmi dövriyyəyə verilməmişdi. [1 ].

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramında bu sahədən olan kadrların formalaşdırılması məsələsi öz əksini tapmışdır : " 2030-cu ilə qədər bulud texnologiyaları, avtonom nəqliyyat vasitələri və dronlar, "Big Data" və məlumatların təhlili, "ağıllı" cihazlar və əşyaların interneti, blokçeyn, 3D çapetmə, süni intellekt

və maşın öyrənməsi, nanotexnologiyalar, robototexnika, virtual reallıq kimi texnologiyaların iqtisadiyyata daha çox təsir göstərəcəyi gözlənilir. Bu proseslər yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən yüksəkixtisaslı kadrlara tələbatı artırır". Azərbaycan-Türkiyə birliyi çərçivəsində 2022-ci ilin may ayında Bakıda baş tutmuş "TEKNOFEST Azərbaycan" festivalı ölkəmizin bu sahədə savadlı, bacarıqlı gənc tədqiqatçılarının olmasının bariz nümunəsidir . Bu festival zamanı müxtəlif istiqamətlər üzrə keçirilən texnoloji yarışlarda və müsabiqələrdə müxtəlif təhsil müəssisələri komandalarla iştirak edirdi. Bu da gənclərin bu sahəyə olan marağının göstəricisidir. Bu da bir həqiqətdir ki , fərdi kompüterlər, noutbuklar, smartfonlar, mobil qurğular, simsiz və simli şəbəkə texnologiyalarının istifadəçilərinin böyük əksəriyyəti məhz gənclərdir. İnsan yaradılışın ən ali varlığıdır və süni intellektin onu tam olaraq əvəzləməsi bir qədər real görünmür. Nəzərə alsaq ki, dünya ölkələrində süni intellektin inkişafı qeyri-bərabərdir. Bir neçə lider dövlətlər belə - ABŞ, Çin , Böyük Britaniya rəqabətdədir. Təbii insan intellektini süni intellektin üstələməsinə dair çoxlu sayda məntiqli, inandırıcı elmi dəlillər vardır. Bir insanın ana dilində danışa bilməsi üçün ona 3 milyon söz-kəlmə lazımdır. Nəzərə alsaq ki, 6.900 dünya dili mövcuddur, süni intellektin bu sahədə uğuru mümkünsüzdür. Tarixin təcrübəsi sübut edir ki, fəlsəfənin diqqətinin insandan uzaqlaşması acı nəticələrə gətirib çıxarır. İnsanlıq qurtuluş yolunu onda görür ki, fəlsəfə yenidən insana doğru üz çevirir, onun hərəkət və fəaliyyətini yenidən özünə qaytarır. Xarici aləmin dərki sahəsindəki uğurlar insanı bir qədər məst etmiş, nəticədə zəka əsrindən sonra fəlsəfənin nəzər diqqəti insandan uzaqlaşmışdır. Bu da insanlığa baha başa gəlmişdir.

## Nəticə

Müasir insanın biliyi, onun intellekti bəşəriyyətin inkişafına müsbət təsir göstərməli və onu məhv etməməlidir. İnsanı başqa varlığın əvəz edib-etməyəcəyini isə gələcək zaman göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Əliyev, E., Süni intellektin fəlsəfəsi: metaforadan gerçəkliyə doğru / 10 yanvar , 2020. URL: https ://www.muallim.edu.az/news.php?id=9279
2. İntellektual sistemlər və texnologiyalar. R. Balayev, M. Əlizadə, İ. Musayev. – Bakı : MSV NƏŞR, - 2016. – 256 s.
3. Qurbanov, F. Fəlsəfə və süni intellekt: fənlərarası yanaşma prizmasında / 25 iyun, 2021. http://philosophy.edu.az/index.php?newsid=120
4. Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq. İ. R. Məmmədzadə, Ə. F. Abbasov, Ə. S. Abasov, F.M. Qurbanov, A.R. Buniyatov. – Bakı: Elm və təhsil , - 2022 . - 364 s.


**Ulviya Mehraliyeva**

## SOCIO-PHILOSOPHICAL ASPECT OF CREATION OF ARTIFICIAL INTELLIGENCE

## ABSTRACT

In the current period, artificial intelligence has become an important attribute in the life of society. This has an impact on people's socialization, lifestyle, moral values, and goals. The real situation shows that artificial intelligence is entering social life from the theoretical field. Therefore, the study of artificial intelligence from a socio-philosophical aspect is relevant. The use of computer technologies, nanotechnologies, global activation of cyberspace not only affects values, it also affects a person's form of communication and outlook, which changes the essence of a person's existence.

***Keywords:*** *artificial intelligence, human, social philosophy, nanotechnology, thinking machine, information society*

10.61764/lasr.2.2023.26-30

**Ульвия Мехралиева**

# СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АСПЕКТ СОЗДАНИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

**Резюме**

В нынешнюю эпоху искусственный интеллект стал важным атрибутом в жизни общества. Это оказывает влияние на социализацию людей, образ жизни, моральные ценности и цели. Реальная ситуация показывает, что искусственный интеллект входит в общественную жизнь из теоретического поля. Поэтому изучение искусственного интеллекта с социально-философского аспекта является актуальным. Использование компьютерных технологий, нанотехнологий, глобальная активизация киберпространства влияет не только на ценности, это также влияет на форму общения и мировоззрение человека, что меняет суть существования человека.

***Ключевые слова:*** *искусственный интеллект, человек, социальная философия, нанотехнологии, мыслящая машина, информационное общество.*